**MHŞT üzrə Çoxtərəfli Qrupun iclasının**

**Protokolundan Çıxarış № 32**

**Bakı şəhəri** **21 iyul 2014-cü il**

İştirak edirdilər:

**Çoxtərəfli Qrupun sədri**

Şahmar Mövsümov - ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri

**Çoxtərəfli Qrupun üzvləri**

Zaur Fətizadə - Vergilər Nazirliyinin nümayəndəsi

Araz Yusubov – Şirkətlər qrupunun nümayəndəsi

Rasim Axundov - Şirkətlər qrupunun nümayəndəsi

Qubad İbadoğlu – QHT Koalisiyasının nümayəndəsi

Azər Mehtiyev – QHT Koalisiyasının nümayəndəsi

İlham Hüseynli - QHT Koalisiyasının nümayəndəsi

Elçin Abdullayev - QHT Koalisiyasının nümayəndəsi

Mehriban Vəzir - QHT Koalisiyasının nümayəndəsi

**Digərləri**

Fərid Fərzəliyev - MHŞT üzrə Katibliyin başçısı

Abbas Abbasov - MHŞT üzrə Katibliyin mütəxəssisi

Cəmalə Əliyeva - Dövlət Neft Fondunun nümayəndəsi

**İclasın gündəliyi:**

1. İctimai birliklərin MSŞA Koalisiyası üzvü olan təşkilatların fəaliyyətində yaranmış çətinliklər üzrə müzakirə
2. Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək vermək üçün ÇQ üzvlərindən ibarət İşçi qrupun işi ilə bağlı müzakirə
3. Digər məsələlər

**İctimai birliklərin MSŞA Koalisiyası üzvü olan təşkilatların fəaliyyətində yaranmış çətinliklər üzrə qərara alındı:**

Yaranmış çətinliklər və problemlər 2014-cü ilin sentyabr ayına qədər aradan qaldırılmazsa, MHŞT üzrə Katiblik bu məsələlərin müzakirəsi üçün cari ilin sentyabr ayında ÇQ-nin növbəti iclasını təşkil etsin.

**Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək vermək üçün ÇQ üzvlərindən ibarət İşçi qrupun işi ilə bağlı qərara alındı:.**

1. Auditor kontekstual məlumatlarla bağlı verəcəyi hesabatın layihə strukturunu İşçi Qrupa təqdim etsin.
2. İşçi Qrupun iclası 26 avqust-9 sentyabr tarixləri arasında Katiblik tərəfindən təşkil edilsin.